

# Regionda yeni konflikt mühiti yaratmaq istəyirlər

*Bir neçə gün öncə "Keşikçi dağ" monastrı ətrafında Azərbaycan və Gürcüstan arasında gərginlik yaranıb. Hər iki tərəfdən ictimai-siyasi fəallar məsələyə fərqli yanaşmalar otaya qoysalar da, rəsmi şəxslər daha təmkinli davranırlar. Belə ki, Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi, general-polkovnik Elçin Quliyev və Gürcüstan Sərhəd Polisinin rəisi Teymuraz Kekelidzenin başçılıq etdiyi nümayəndə heyətlərinin "Şəmkir" sərhəd dəstəsinin xidməti ərazisində dövlət sərhədində işçi görüşü keçirilib.*

Səh.6



24 səhifə
Həftəlik qəzet

# UNIKAL

№26 (1965) 11 may 2019-cu il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru

Səh.5



# Orta məktəblərdə şagirdlər intihara sürüklənir

# Məhərrəm Əliyevin yeni planı

## Nazir müavini məmur özbaşınalığını dilə gətirdi

*Ədliyyə nazirinin müavini general-leytenant Məhərrəm Əliyev ümummilli lider Heydər Əliyevlə bağlı xatirələrini bölüşüb.*

General bu barədə yazdığı məqalədə bəzi məmurlara mesaj verib və sətiraltı ittiham edib. Ədliyyə nazirinin müavini xüsusi olaraq vurğulayıb ki, hər kəs üzərinə düşən vəzifənin məsuliyyətini dərindən anlamalıdır: "Ulu öndər qeyd edirdi ki, "Vəzifəli adam öz xalqına qulluq etməlidir". Birinci növbədə vəzifə sahibləri məhz, xalqa ləyaqətlə xidmət etməlidirlər. Lakin təəssüflər olsun ki, bəzi məmurlar öz vəzifə səlahiyyətlərindən sui-istifadə edir, problem həll etmək əvəzinə, problem yaradırlar. Bu da ümumi narazılığa səbəb olur. Məsəl var, bulanıq suda balıq tutmaq daha asandır. Həmin şəxslərin də vəzifəyə baxışı bu cürdür. Bələləri problem yaradıb kənarda durmaqla məsuliyyətdən yayınmağa çalışırlar. Biz əvvəlcə bu ünsürlərdən xilas olmalıyıq".

Səh.3

## "Azərbaycan xalqı müxalifəti illər öncə tarixin arxivinə atıb"



*Milli Məclisin deputatı, Regional məsələlər, Gənclər və idman komitələrinin üzvü Cavid Osmanov Unikal.org-a müsahibə verib. "Unikal" qəzeti həmin müsahibəni oxuculara təqdim edir.*

Səh.4

## Sabiq nazir vəzifə gözləyir



*Ötən il sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov gözlənilmədən işsiz qaldı. Düzdür, Müslümovun sonradan Milli Aviasiya Akademiyasının Dünya iqtisadiyyatı kafedrasına müdir təyin edildiyi bildirildi, lakin sonradan onun adi müəllim kimi işə götürüldüyü ortaya çıxdı.*

Səh.12

## Paşinyanın Şuşaya səfərinə sərt reaksiya



*Mayın 8-də Ermənistan parlamentinin sədri Ararat Mirzoyan və keçmiş prezident Serj Sarkisyan Qarabağa gəlib. Bundan 1 gün sonra mayın 9-da isə Ermənistanın baş naziri Nikol Paşinyan həyat yoldaşı Anait Saakyanla Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsinə səfər edib. N.Paşinyan Şuşada ermənilərlə rəqs edərək fotolarını paylaşıb.*

Səh.10